Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlkin Şahbazovun 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədi qeyd alınmış "Milli Dirçəliş Hərəkatı Partiyası"-nın səlahiyyətli nümayəndəsi Bayram Abbasovun 27 sentyabr 2013-cü il tarixli 09 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 28 sentyabr 2013-cü il

Mən, ekspert qrupunun üzvü İlkin Şahbazov 2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədi qeydə alınmış "Milli Dirçəliş Hərəkatı Partiyası"-nın səlahiyyətli nümayəndəsi Bayram Abbasovun Mərkəzi Seçki Komissiyasına 27 sentyabr 2013-cü ildə daxil olmuş 09 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayətvermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

Müraciətin araşdırılması nəticəsində aşağıdakıları müəyyən etdim:

2013-cü il oktyabrın 9-na təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədi qeydə alınmış Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli nümayəndəsi Bayram Abbasov 2013-cü il sentyabrın 27-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək prezidentliyə namizədliyi qeydə alınmış Fərəc Quliyevin 25 sentyabr 2013-cü ildə Şamaxı şəhərində saat 15.00-ra təyin edilmiş seçicilərlə görüşündə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 86.1 maddəsinin tələblərinin bəzi hallarda pozulmasını bildirib, müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

2013-cü il sentyabrın 28-də Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədi qeydə alınmış Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli nümayəndəsi Bayram Abbasov Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək həmin müraciətinin ərizəçiyə geri qaytarılmasını xahiş etmişdir.

Ərizə şəxsən şikayətçi Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədi qeydə alınmış Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli nümayəndəsi Bayram Abbasov tərəfindən yazılıb imzalandığına və onun iradəsini ifadə etdiyinə görə təmin edilməli, müraciətin baxılmasına xitam verilməli və şikayət ərizəsi şikayətçiyə geri göndərilməlidir.

2013-cü il sentyabrın 28-də Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədi qeydə alınmış Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli nümayəndəsi Bayram Abbasov Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək həmin müraciətinin ərizəçiyə geri qaytarılmasını xahiş etmişdir.

Ərizə şəxsən şikayətçi Azərbaycan Respublikası Prezidentinin seçkilərində namizədi qeydə alınmış Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli nümayəndəsi Bayram Abbasov tərəfindən yazılıb imzalandığına və onun iradəsini ifadə etdiyinə görə təmin edilməli, müraciətin baxılmasına xitam verilməli və şikayət ərizəsi şikayətçiyə geri göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim :**

1. Milli Dirçəliş Hərəkatı Partiyasının səlahiyyətli nümayəndəsi Bayram Abbasovun 27 sentyabr 2013-cü il tarixli 09 saylı müraciəti ərizəçi tərəfindən geri götürüldüyü üçün müraciətin baxılmasına xitam verilərək, şikayət ərizəsi ərizəçiyə geri göndərilsin.

2. Rəy qəbul edildiyi andan 18 saat müddətində dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü İlkin Şahbazov